**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**QƏRARI**

**№ 54/5**

**Bakı şəhəri** **07 dekabr 2022-ci il**

**Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək istəyən sığortaçıların İcbari Sığorta Bürosu tərəfindən formalaşdırılan cari öhdəliklər ehtiyatı ilə bağlı hesaba ödədikləri birdəfəlik pul vəsaitinin məbləğinin və Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən bu sistem üzrə tətbiq ediləcək sığorta haqlarının müəyyən edilməsi barədə**

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 63-4.3-cü və 63-9-cu maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. "Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək istəyən sığortaçıların İcbari Sığorta Bürosu tərəfindən formalaşdırılan cari öhdəliklər ehtiyatı ilə bağlı hesaba ödənilən birdəfəlik pul vəsaitinin məbləği 10 000 (on min) manat müəyyən edilsin.

2. "Yaşıl Kart" beynəlxalq sığorta sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən bu sistem üzrə tətbiq ediləcək sığorta haqları Yaşıl Kart Sisteminə daxil olan ölkələrin qanunvericiliyində nəzərdə tutulmuş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta məbləğləri nəzərə alınmaqla aşağıdakı kateqoriyalar üzrə müəyyən edilsin:

2.1. Yaşıl Kart müqavilələri üzrə Türkiyə Respublikası və İran İslam Respublikasına gedən Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları (Əlavə 1);

2.2. Yaşıl Kart müqavilələri üzrə Belarus Respublikası, Moldova Respublikası, Rusiya Federasiyası və Ukrayna Respublikasına gedən Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları (Əlavə 2);

2.3. Yaşıl Kart müqavilələri üzrə Yaşıl Kart Sisteminə daxil olan digər ölkələrə gedən Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları (Əlavə 3);

2.4. Yaşıl Kart müqavilələri üzrə Türkiyə Respublikası, İran İslam Respublikası, Belarus Respublikası, Moldova Respublikası, Rusiya Federasiyası və Ukrayna Respublikasına gedən Gürcüstan və Qazaxıstan respublikalarında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları (Əlavə 4);

2.5. Yaşıl Kart müqavilələri üzrə Yaşıl Kart Sisteminə daxil olan digər ölkələrə gedən Gürcüstan və Qazaxıstan respublikalarında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları (Əlavə 5);

3. Müəyyən edilsin ki, bu Qərarın 2-ci hissəsində göstərilən ayrı-ayrı kateqoriyalara aid bir neçə ölkəyə gedən avtonəqliyyat vasitəsinə münasibətdə sığorta haqqı daha yuxarı sığorta haqqının nəzərdə tutulduğu kateqoriya üzrə hesablanır.

4. Bu Qərar 2023-cü il 1 yanvar tarixindən qüvvəyə minir.

5. Hüquq departamentinə (Rəna Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

Azərbaycan Respublikasının
Mərkəzi Bankının 07 dekabr 2022-ci il
tarixli 54/5 nömrəli Qərarına Əlavə 1

**Yaşıl Kart müqavilələri üzrə Türkiyə Respublikası və İran İslam Respublikasına gedən Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları**

| **S.n.** | **Avtonəqliyyat vasitəsinin növü** | **Yaşıl Kart müqaviləsinin müddətinə görə sığorta haqqının məbləği (manatla)** | | | |
|---|---|---|---|---|---|
| | | **12 ay** | **6 ay** | **3 ay** | **1 ay** |
| **1.** | Minik avtomobillərinin və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - mühərriklərinin həcminə görə: | | | | |
| | - 50 sm3 - 1500 sm3 | 80 | 60 | 40 | 15 |
| | - 1501 sm3 - 2000 sm3 | 90 | 70 | 50 | 17 |
| | - 2 001 sm3 - 2500 sm3 | 100 | 75 | 60 | 20 |
| | - 2501 sm3 - 3000 sm3 | 110 | 80 | 70 | 22 |
| | - 3001 sm3 - 3500 sm3 | 130 | 85 | 75 | 25 |
| | - 3501 sm3 - 4000 sm3 | 150 | 90 | 80 | 30 |
| | - 4001 sm3 - 4500 sm3 | 170 | 100 | 90 | 40 |
| | - 4501 sm3 - 5000 sm3 | 190 | 120 | 100 | 50 |
| | - 5000 sm3-dən çox | 220 | 150 | 120 | 70 |
| **2.** | Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - sərnişin yerlərinin sayına görə: | | | | |
| | - 9-16 | 240 | 180 | 100 | 80 |
| | - 16 - dan artıq | 360 | 270 | 160 | 90 |
| **3.** | Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - icazə verilən maksimum kütləsinə görə: | | | | |
| | - 3500 kq-dan çox olmadıqda | 350 | 230 | 120 | 80 |
| | - 3501 kq - 7000 kq | 400 | 300 | 170 | 90 |
| | - 7000 kq - dan yuxarı | 440 | 330 | 190 | 110 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | Motosikletlər və motorollerlər | 70 | 50 | 30 | 12 |
| **5.** | Qoşqular və yarımqoşqular | 70 | 50 | 30 | 12 |
| **6.** | Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri | 100 | 75 | 45 | 25 |

Azərbaycan Respublikasının
Mərkəzi Bankının 07 dekabr 2022-ci il
tarixli 54/5 nömrəli Qərarına Əlavə 2

**Yaşıl Kart müqavilələri üzrə Belarus Respublikası, Moldova Respublikası, Rusiya Federasiyası və Ukrayna Respublikasına gedən Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları**

| **S.n.** | **Avtonəqliyyat vasitəsinin növü** | **Yaşıl Kart müqaviləsinin müddətinə görə sığorta haqqının məbləği (manatla)** | | | |
|---|---|---|---|---|---|
| | | **12 ay** | **6 ay** | **3 ay** | **1 ay** |
| **1.** | Minik avtomobillərinin və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - mühərriklərinin həcminə görə: | | | | |
| | - 50 sm3 - 1500 sm3 | 50 | 40 | 25 | 10 |
| | - 1501 sm3 - 2000 sm3 | 70 | 60 | 35 | 12 |
| | - 2 001 sm3 - 2500 sm3 | 80 | 65 | 40 | 15 |
| | - 2501 sm3 - 3000 sm3 | 90 | 75 | 45 | 17 |
| | - 3001 sm3 - 3500 sm3 | 100 | 80 | 50 | 20 |
| | - 3501 sm3 - 4000 sm3 | 120 | 85 | 55 | 25 |
| | - 4001 sm3 - 4500 sm3 | 150 | 90 | 60 | 30 |
| | - 4501 sm3 - 5000 sm3 | 170 | 95 | 70 | 40 |
| | - 5000 sm3-dən çox | 190 | 110 | 80 | 50 |
| **2.** | Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - sərnişin yerlərinin sayına görə: | | | | |
| | - 9-16 | 200 | 150 | 80 | 60 |
| | - 16-dan artıq | 300 | 220 | 130 | 80 |
| **3.** | Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - icazə verilən maksimum kütləsinə görə: | | | | |
| | - 3500 kq-dan çox olmadıqda | 300 | 200 | 100 | 50 |
| | - 3501 kq-7 000 kq | 330 | 270 | 150 | 70 |
| | - 7000 kq - dan yuxarı | 400 | 300 | 170 | 80 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | Motosikletlər və motorollerlər | 50 | 40 | 25 | 10 |
| **5.** | Qoşqular və yarımqoşqular | 50 | 40 | 25 | 10 |
| **6.** | Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri | 80 | 60 | 40 | 20 |

Azərbaycan Respublikasının
Mərkəzi Bankının 07 dekabr 2022-ci il
tarixli 54/5 nömrəli Qərarına Əlavə 3

**Yaşıl Kart müqavilələri üzrə Yaşıl Kart Sisteminə daxil olan digər ölkələrə gedən Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları**

| S.n. | Avtonəqliyyat vasitəsinin növü | Yaşıl Kart müqaviləsinin müddətinə görə sığorta haqqının məbləği (manat) | | | |
|---|---|---|---|---|---|
| | | **12 ay** | **6 ay** | **3 ay** | **1 ay** |
| **1.** | Minik avtomobillərinin və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - mühərriklərinin həcminə görə: | | | | |
| | - 50 sm3 - 1500 sm3 | 100 | 70 | 50 | 30 |
| | - 1501 sm3 - 2000 sm3 | 150 | 80 | 60 | 35 |
| | - 2001 sm3 – 2500 sm3 | 170 | 90 | 80 | 45 |
| | - 2501 sm3 - 3000 sm3 | 200 | 110 | 90 | 50 |
| | - 3001 sm3 - 3500 sm3 | 250 | 140 | 100 | 55 |
| | - 3501 sm3 - 4000 sm3 | 300 | 200 | 120 | 70 |
| | - 4001 sm3 - 4500 sm3 | 350 | 240 | 150 | 80 |
| | - 4501 sm3 - 5000 sm3 | 380 | 260 | 170 | 90 |
| | - 5000 sm3-dən çox | 400 | 280 | 190 | 100 |
| **2.** | Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - sərnişin yerlərinin sayına görə: | | | | |
| | - 9-16 | 600 | 450 | 270 | 150 |
| | - 16-dan artıq | 900 | 650 | 400 | 230 |
| **3.** | Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri - icazə verilən maksimum kütləsinə görə: | | | | |
| | - 3500 kq-dan çox olmadıqda | 600 | 400 | 250 | 160 |
| | - 3501 kq-7000 kq | 850 | 600 | 400 | 250 |
| | - 7000 kq - dan yuxarı | 1200 | 850 | 500 | 290 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | Motosikletlər və motorollerlər | 100 | 70 | 50 | 30 |
| **5.** | Qoşqular və yarımqoşqular | 120 | 80 | 60 | 35 |
| **6.** | Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri | 250 | 180 | 110 | 60 |

Azərbaycan Respublikasının
Mərkəzi Bankının 07 dekabr 2022-ci il
tarixli 54/5 nömrəli Qərarına Əlavə 4

**Yaşıl Kart müqavilələri üzrə Türkiyə Respublikası, İran İslam Respublikası, Belarus Respublikası, Moldova Respublikası, Rusiya Federasiyası və Ukrayna Respublikasına gedən Gürcüstan və Qazaxıstan respublikalarında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları**

| **S.n.** | **Avtonəqliyyat vasitəsinin növü** | **Yaşıl Kart müqaviləsinin müddətinə görə sığorta haqqının məbləği (manat)** | | | |
|---|---|---|---|---|---|
| | | **12 ay** | **6 ay** | **3 ay** | **1 ay** |
| **1.** | Minik avtomobillərinin və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri | 330 | 225 | 180 | 105 |
| **2.** | Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri | 700 | 560 | 390 | 150 |
| **3.** | Qoşqular və yarımqoşqular | 80 | 60 | 40 | 15 |
| **4.** | Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri | 1 630 | 860 | 480 | 225 |
| **5.** | Motosikletlər və motorollerlər | 170 | 120 | 70 | 30 |
| **6.** | Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri | 150 | 115 | 75 | 35 |

Azərbaycan Respublikasının
Mərkəzi Bankının 07 dekabr 2022-ci il
tarixli 54/5 nömrəli Qərarına Əlavə 5

**Yaşıl Kart müqavilələri üzrə Yaşıl Kart Sisteminə daxil olan digər ölkələrə gedən Gürcüstan və Qazaxıstan respublikalarında qeydiyyatdan keçmiş avtonəqliyyat vasitələrinə münasibətdə nəzərdə tutulan sığorta haqları**

| **S.n.** | **Avtonəqliyyat vasitəsinin növü** | **Yaşıl Kart müqaviləsinin müddətinə görə sığorta haqqının məbləği (manat)** | | | |
|---|---|---|---|---|---|
| | | **12 ay** | **6 ay** | **3 ay** | **1 ay** |
| **1.** | Minik avtomobillərinin və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri | 887 | 663 | 465 | 229 |
| **2.** | Yük avtomobilləri və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri | 1 170 | 889 | 620 | 288 |
| **3.** | Qoşqular və yarımqoşqular | 140 | 112 | 77 | 30 |
| **4.** | Avtobuslar, mikroavtobuslar və onların bazasında istehsal edilmiş digər avtonəqliyyat vasitələri | 2 389 | 1 321 | 765 | 367 |
| **5.** | Motosikletlər və motorollerlər | 267 | 204 | 142 | 65 |
| **6.** | Traktorlar, yol-tikinti işlərində, meşə və kənd təsərrüfatında istifadə olunan avtonəqliyyat vasitələri | 293 | 225 | 157 | 69 |